***TARİXİN TƏDRİSİ METODİKASI***
***METHODOLOGY OF TEACHING HISTORY***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ***

*UOT 372.894(100)"05/*

***Nəzakət İbrahim qızı Zamanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/000 0002 4033 8298*
*E-mail: znazakat@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(6).187-190*

# MİLLİ KİMLİYİN QORUNMASINDA TARİXİ ABİDƏLƏRİN VƏ SƏNƏTKARLIĞIN ROLU

***Nazakat Ibrahim Zamanova***
*senior lecturer at*
*Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

# THE ROLE OF HISTORICAL MONUMENTS AND CRAFTSMANSHIP IN PRESERVING NATIONAL IDENTITY

***Назакат Ибрагим гызы Заманова***
*старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

# РОЛЬ ИСТОРИЧЕСКИХ ПАМЯТНИКОВ И РЕМЕСЛЕННИЧЕСТВА В СОХРАНЕНИИ НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ

**Xülasə**. Məqalədə tarixi memarlıq abidələrinin və sənətkarlıq nümunəsi əsasında milli mənəvi dəyərlərin formalaşmasındakı rolundan bəhs edilir. Həmçinin sənətkarlığın, mədəni irs daşıyıcısı, estetik, əxlaq dəyərlərin ifadəsində, sosial kimlik milli birlik, tarixi yaddaş-xalqın özünü ifadəsi və mədəni davamlılıq və sabitlik kimi funksiyaları olduğu vurğulanmışdır. Eyni zamanda bir xalqın formalaşmasının onun milli mənəvi dəyərlərinin nəticəsi olaraq əsaslandırılmışdır. Bu dəyərlərin bir xalqın milli kodunun olması açıqlanmışdır. Onun qorunması bərpası gələcək nəsillərə ötürülməsi insanlığın ən ümdə vəzifəsi və var oluşunun bariz nümunəsi olduğu diqqətə çatdırılmışdır. Rəqəmsal dünyada fürsətlər və çağırışlardan yararlanmaq eyni zamanda xaotik qarışıq dövrdə milli kimliyimizin milli sütunu saxlamağın yollarının da tarixi memarlıq və sənətkarlığın inkişafı və qorunmasından keçdiyi qeyd edilmişdir.
***Açar sözlər***: *milli kimlik, qan yaddaşı, milli irs, sənətkarlıq, abidə*

**Abstract.** The article discusses the role of historical architectural monuments and craftsmanship in the formation of national spiritual values**.** It is also emphasized that craftsmanship, as a carrier of cultural heritage, has functions such as social identity, national unity, historical memory - self-expression of the people, and cultural continuity and stability in the expression of aesthetic and moral values. At the same time, the formation of a nation is justified as a result of its national spiritual values. It is explained that these values are the national code of a nation. It is brought to attention that its preservation and restoration is the most important task of humanity and a clear example of its existence. It is noted that taking advantage of the opportunities and calls in the digital world and at the same time, the ways to maintain the national pillar of our national identity in a chaotic and mixed era also go through the development and protection of historical architecture and craftsmanship.
***Keywords:*** *national identity, blood memory, national heritage, craftsmanship, monument*

**Аннотация.** В статье рассматривается роль историко-архитектурных памятников и ремесленного искусства в формировании национальных духовных ценностей. Автором также подчеркивается, что ремесло, как носитель культурного наследия, выполняет такие функции, как социальная идентичность, национальное единство, историческая память – самовыражение народа, а также культурная преемственность и устойчивость в выражении эстетических и нравственных ценностей. В то же время, формирование нации обосновывается как результат ее национальных духовных ценностей. Разъясняется, что эти ценности являются национальным кодом нации. Доводится до сведения, что их сохранение и восстановление – важнейшая задача человечества и наглядный пример его существования. Отмечается, что использование возможностей и вызовов цифрового мира и в то же время пути сохранения национальной опоры нашей национальной идентичности в хаотичную и смешанную эпоху также проходят через развитие и защиту исторической архитектуры и ремесленничества.

***Ключевые слова:*** *национальная идентичность, кровная память, национальное наследие, мастерство, памятник*

Rəqəmsal dünyada yaşayırıq. Rəqəmsallığın nəticəsi olaraq dünya sanki vahid məkana çevrilir. Milli iqtisadiyyat və milli təhsil, mədəniyyət qlobal iqtisadiyyatın və qlobal təhsilin, mədəniyyətin bir parçasına çevrilir. Fürsətlər çağırışlar dövrü olan rəqəmsallıq milli kimliyi itirib assimilyasiyanı, təhdidləri də bərabərində gətirir. Onun imkanlarından istifadə edərkən xaotik təhdidlərindən qorunmaq, milli kimliyi, dəyərləri qorumaq tarixi memarlıq abidələri və sənətkarlıq nümunələri bizim üçün istinad edəcəyimiz əvəzsiz mirasdır.

Bu baxımdan ölkəmizdə mövcud olan zəngin tarixi memarlıq və sənətkarlıq irsi xalqımızın milli-mənəvi dəyərlərinin formalaşmasında mühüm rol oynamışdır. Ölkəmizin müxtəlif ərazilərində yerləşən tarixi memarlıq abidələri əsrlər boyu yaşayış məskənlərinin sosial-mədəni həyatında mühüm rol oynamaqla yanaşı, günümüzdə də bu öz estetik və tarixi dəyərini qoruyub saxlanmasında müstəsna əhəmiyyətə malikdir.

Tarixi memarlıq abidələrin və bu abidələrin qorunması və bərpası, eyni zamanda həm də sənətkarlıq ənənələrinin yaşadılması və gələcək nəsillərə ötürülməsi olduqca əhəmiyyətlidir. Çünki istər memarlıq istərsə də sənətkarlıq insanların mənəvi dəyərlərinin formalaşmasında əvəzsiz rol oynayır. Bu baxımdan ölkəmizdə mövcud olan tarixi memarlıq abidələrini nümunə gətirmək olar. Onlardan Gəncə şəhərində yerləşən tarixi memarlıq irsini nümunə kimi misal gətirək. Gəncə şəhəri öz memarlıq irsi ilə seçilir. Burada yerləşən *Cavad xan türbəsi, Şah Abbas məscidi (Uğurlu bəy məscidi və ya bəzi mənbələrdə Gəncə Cümə məscidi kimi də adlanır),* XVII əsrdə tikilmiş Aran memarlıq üslubunu əks etdirir və orta əsr Azərbaycan memarlığının portal-günbəz ənənələrini davam etdirir. Nizami Gəncəvinin məqbərəsi memarlıq baxımından xüsusi əhəmiyyət kəsb edir. *İmamzadə kompleksi* Gəncə şəhərinin ən əhəmiyyətli dini memarlıq abidəsi olub müxtəlif vaxtlarda tikilmişdir. *Çökək hamam, Gəncə karvansarası* kimi abidələr nəinki milli memarlıq abidələri eyni zamanda dünya memarlıq irsində də öz üslubu ilə seçilən bariz nümunələrdəndir. Bu tikililər həm estetik görünüş, həm də funksional memarlıq baxımından olduqca qiymətlidir. Gəncə qalası şəhərin tarixi mərkəzində yerləşən qala divarlarının qalıqları şəhərin qədimliyini əks etdirir. Eyni zamanda Gəncə şəhəri ərazisindəki körpülər XII əsrə aid mühəndislik və memarlıq nümunələrindəndir. Həmçinin Alban məbədləri regionun erkən xristian dövrünə aid memarlıq abidələrini təmsil edir.

Şəki1.Gəncə. İmamzadə türbəsi.



**1. Memarlıq abidələrinin mühafizəsi və bərpası**

Son illərdə Gəncə şəhərində bir çox tarixi abidələrin bərpası və qorunması istiqamətində dövlət tərəfindən mühüm addımlar atılmışdır.

Xüsusilə müstəqilliyimizdən sonra davamlı olaraq Azərbaycan Respublikasının "Tarixi və mədəniyyət abidələrinin qorunması haqqında" qanuna əsasən, bu abidələr dövlət mühafizəsinə götürülmüşdür [4, s. 71]. Bərpa zamanı ənənəvi materiallardan istifadə olunması və ilkin memarlıq xüsusiyyətlərinin qorunması əsas prinsiplərdəndir.

**2. Sənətkarlığın milli-mənəvi dəyərlərin qorunmasındakı rolu.** Milli-mənəvi dəyərlərin formalaşmasında sənətkarlığın rolu olduqca əhəmiyyətlidir. Sənətkarlığın milli-mənəvi dəyərlərin qorunmasındakı rolu çox böyük və əvəzolunmazdır. O, xalqın tarixini, mədəniyyətini, düşüncə tərzini, zövqünü və həyat tərzini yaşadan ən mühüm vasitələrdən biridir. Sənətkarlıq nümunələri – xalçaçılıq, zərgərlik, dulusçuluq, ağacoyma, misgərlik və s. – xalqın özünəməxsusluğunu, adət-ənənələrini əks etdirir. Bu sənətlər milli kimliyin unudulmamasına xidmət edir. Sənətkarlıq yalnız bir peşə və ya əşya istehsalı yaxud bir iş yeri deyil, həm də bir xalqın tarixi, adət-ənənələri, qan yaddaşının, dünyagörüşü və estetik duyumunun ifadəsidir.

**1. Mədəni irsin daşıyıcısı kimi sənətkarlıq**

Sənətkarlıq xalqın keçmişini, yaşam tərzini, dünya görüşünü və dəyərlər sistemini əks etdirən canlı irs formasıdır. Sənətkarlıq nümunələri (məsələn, xalçaçılıq, dulusçuluq, ağac oyma, metal işləmə və s.) nəsildən-nəslə ötürülərək milli-mənəvi kimliyin qorunmasında mühüm rol oynayır. Azərbaycanın görkəmli kristalloqraf, alim, ictimai-siyasi xadim və milli ideologiyaçısı olan Xudu Məmmədovun milli abidələrdə sənətkarlıqda olan naxışlarda, rənglərin musiqi ilə sintezində milli kimliyin formalaşmasındakı rolunu elmi əsaslarla qan yaddaşında olduğunu əhəmiyyətindən bəhs edərək, maraqlı araşdırmalara da yol açacağını söyləmək olar.

**2. Estetik və əxlaqi dəyərlərin ifadəsi**

Gəncə ənənəvi sənətkarlıq nümunələri həm estetik zövq aşılayır, həm də əxlaqi və mənəvi dəyərləri çatdırır. Məsələn, xalçalarda işlənən naxışlar və ornamentlər ailə, doğmalıq, müqəddəslik və təbiətə bağlılıq kimi dəyərləri simvolizə edir. Eyni zamanda xalqın estetik baxışlarını ifadə edir və gənc nəsildə milli zövqün inkişafına təsir göstərir.

**3. Sosial kimlik və milli birlik**

Gəncə şəhərinin özünə məxsus sənətkarlıq, bir toplumun mədəni kimliyinin formalaşmasına yardım edir. Xalq sənətləri vasitəsilə fərqli bölgələrin, etnik qrupların və sosial təbəqələrin ortaq mənsubiyyət hissini gücləndirir. Bu isə öz növbəsində milli birliyin möhkəmlənməsinə xidmət edir. Həmçinin, sənətkarlıq həm də ailələrin dolanışıq vasitəsi olmuş, əməksevərlik və zəhmətkeşlik dəyərlərinin qorunub saxlanmasına şərait yaratmış iqtisadi-sosial funksiya rolunu da yerinə yetirmişdir.

**4. Tarixi yaddaş və xalqın özünüifadəsi**

Sənətkarlıq xalq yaddaşının vizual və praktik formada təcəssümüdür. Hər bir sənət nümunəsi bir dövrün, bir hadisənin və ya bir həyat tərzinin daşıyıcısı ola bilər. Bu, xalqın öz tarixini unutmayaraq gələcək nəsillərə ötürməsinə imkan yaradır.

**5. Mənəvi sabitlik və davamlılıq**

Sürətlə dəyişən müasir dünyada ənənəvi sənətkarlıq sabitlik və davamlılıq simvoludur. Bu, cəmiyyətin mənəvi sütunlarını möhkəmləndirir və gənc nəslin köklərinə bağlı qalmasını təmin edir.

**Nəticə**. Milli-mənəvi dəyərlərin formalaşmasında ölkəmizdə mövcud olan bütün memarlıq abidələrinin özünə məxsus sənətkarlıq nümunələri həm simvolik, həm funksional, həm də mənəvi baxımdan böyük əhəmiyyət daşıyır. Sənətkarlıq vasitəsilə bir xalqın ruhu, dünyagörüşü və yaşam fəlsəfəsi nəsildən-nəslə ötürülür və zamanla daha da zənginləşir. Eyni zamanda bu abidələrinin qorunması təkcə tarixə deyil, həm də milli kimliyə hörmətdir.[7.] Sənətkarlığın bu prosesdəki iştirakı isə bu irsin yaşadılmasına və mənəvi dəyərlərin yeni nəslə ötürülməsinə şərait yaradır. Nəticə etibarilə, sənətkarlıq milli-mənəvi dəyərlərin qorunmasında dövlət aidiyyatı qurumlar bir sözlə hər birimiz məsuliyyətli olmalıyıq. Bu irsin qorunması nəsillər arasında həm mədəni, həm də mənəvi körpü rolunu oynaya bilir. Eyni zamanda, xalqın kimliyini, ruhunu, tarixini gələcək nəsillərə ötürür. Bu baxımdan memarlıq, və sənətkarlıq bir-birini tamamlayan mədəni irsimizdir.

**Problemin aktuallığı.** Dünya təhsilinə və mədəniyyətinə inteqrasiya XXI əsrin rəqəmsal təzahür xüsusiyyətidir. Bu inteqrasiyanın uğurlu olması isə milli kimlik və dəyərlərin qorunması memarlıq və tarixi abidələrin sənətkarlığın bizə buraxılan mirasa dayanaraq edə bilərik.

**Problemin yeniliyi**. Tarixi sənətkarlıq memarlıq abidələri cəmiyyətin formalaşmasında dinamik rol oynayaraq keçmiş və gələcək arasında körpü rolunu oynayır. Bu dəyərlər qürurla istinad edəcəyimiz əvəzolunmaz mirasdır. Cəmiyyətin inkişaf alqoritminə təsir gücünə sahib olan bu dəyərlərin cəmiyyətin formalaşmasında rəqəmsal texnologiyadan istifadə yeni kontekstdə təbliği faydalıdır..

**Problemin praktik əhəmiyyəti**. Məqalədə təqdim olunmuş fikirlər rəqəmsal dünyada baş verən dəyişikliklərə milli kimlik qorunmaqla adekvatlığı təmin edə biləcək düzgün yol sayıla bilər.

## Ədəbiyyat


1. Azərbaycanın tarixi abidələri və toponimləri: biblioqrafiya / tərt. ed. G. Səfərəliyeva; ixt. red. və burax. məsul K. Tahirov; red. L. Axundova. –Bakı, 2016. – 648 s
2. Cəfərov, Xəlil Ələkbər oğlu. Azərbaycan memarlıq elementləri / X. Ə. Cəfərov; elmi red. E. Ə. Qasımzadə; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası. –Bakı: Təhsil NPM, –2023. –549 s.
3. Hüseynov, A. "Sənətkarlıq ənənələrinin qorunmasında bərpa işlərinin əhəmiyyəti" // Azərbaycan Memarlığı Jurnalı, № 2, –2015. –s. 44-52.
4. Quliyev, T. "Gəncənin mədəni irsi və onun müasir dövrdə qorunması". Elmi Araşdırmalar Jurnalı, cild 5, №3, –2022. –s. 67-73.
5. Mərdan Məmmədov. Təsviri incəsənətin yaradıcılıq janrları (Gəncə abidələri) / –Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, –2021. –231 s.
6. Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı: www.president.az
7. Milli-mədəni dəyərlərimizin qorunması üçün nə etməliyik?
   Sesqazeti.az https://sesqazeti.az › news › news


**Redaksiyaya daxil olub:** 06.10.2025